Sort Azərbaycan Elmi – Tədqiqat Tərəvəzçilik institutunda Qaratağ 256 və Riçay sortlarının çarpazlaşdırılmasından alınmışdır. 2004-cü ildən respublikada rayonlaşdırılmışdır. Sort tezyetişəndir, kütləvi çıxışdan ilk meyvənin yetişməsinə kimi 95-105 gün keçir.Meyvələri yastı, səthi hamar, yetişmiş meyvənin rəngi qırmızıdır. Meyvədə yuvaların sayı 6-10, meyvənin kütləsi 185,0-193,0 q, quru maddənin miqdarı 6,8-7,2q, ümumi şəkər 2,7-2,9%-dir.

Ümumi məhsuldarlığı Abşeron təcrübə sahəsində 469,0-579,0 s/ha, əmtəəlik məhsul 420,0-550,0 s/ha-dır. Sortun keyfiyyət göstəriciləri yüksək olmaqla nəqliyyatla daşınmağa, saxlamağa, fuzarioz və abiotik faktorlara, xüsusən də quraqlığa davamlıdır. Suya az tələbkardır.

Pomidor bitkisinin gövdəsi dikduran və yerə sərilən olub, uzunluğu 3m-ə çatır. Yarpağı adi, ştamblı və kartof yarpağı kimi olub, kənarı tam və ya ləlәkvari kəsiklidir. Çiçəkləri salxım formasındadır və yarpaq qoltuğundan əmələ gəlir. Onlan əsasən ikicinsli, az hallarda bircinslidir, yaşılımtıl-sarı rənglidir. Meyvəsi giləmeyvədir. İriliyi 1 qramdan, 900q-a qədər, müxtəlif formalarda və rənglərdə olur.



Pomidor istilik və işıqsevən bitkidir. Bitkilərin normal boy inkişafı üçün $22^0$-$24^0$C temperatur tələb olunur. Çox vaxt $15^0$C və daha aşağı temperaturda çiçəklənmə, $10^0$C və daha aşağı temperaturda isə böyümə prosesləri dayanır. $35^0$C-dən yüksək temperaturda, bitkilərin boy və inkişafı zəifləyir. Bitki üçün torpağın optimal nəmliyi 75-80% hesab edilir. Pomidor müxaniki tərkibcə yügül torpaqlarda yaxşı becərilir. Çiçəklәmədən 35-40 gün sonra məhsulu yığılır.

Pomidor bitkisi üçün ən yaxşı sələf bitkiləri soğan, bostan bitkiləri, xiyar, kələm, paxlalılardır. Öz fəsiləsindən olan bitkilər və pomidor əkilən yerə yenidən 2-ci dəfə pomidor əkilməsi düzgün deyildir. Belə ki, onda xəstəlik və zərərvericilərlə sirayətlənmə artar. Bir çox tərəvəz bitkilərindən fərqli olaraq pomidor torpağın keyfiyyətinə nisbətən az tələbkardır. Odur ki, onu müxtəlif torpaqlarda becərmək mümkündür. Lakin yüksək məhsul almaq üçün qida maddələri ilə zəngin olan yüngül, qumsal torpaqlar daha əlverişlidir.

Vegetasiya müddətində 2-3 dəfə kultivasiya çəkilməli, bitki araları 4-5 dəfə alaqdan təmizlənib, yumşaldılmalı və bitkinin boğazı doldurulmalıdır. Bitkiyə 1 dəfə yemləmə əkildikdən 10-12 gün sonra, 2-ci yemləmə isə meyvə əmələ gəlmə zamanı verilməlidir.

Sortun toxumları bölgələr üzrə optimal müddətlərdə isti şitilliklərdə səpilir və şitillər 35-40 gün müddətində becərilir. Hazır olan şitillər sahəyə köçürülməzdən bir gün qabaq yaxşı sulanmalıdır ki, şitil çıxarıldıqda kökləri qırılmasın. Şitillərin əkini isə may ayının I ongünlüyünə qədər 70x35 sm sxemi üzrə aparılır. Bitkiyə qulluq işləri əsasən alaqların vurulması, gübrələrin verilməsi, suvarılması, xəstəlik və zərərvericilərə qarşı mübarizədən ibarətdir.

Pomidor toxumları səpindən 4-5 gün əvvəl 5%-li xörək duzu məhlulunda ağırlığına görə seçilməli, təmiz su ilə yuyularaq qurudulmalıdır. Səpilən toxumun əkin keyfiyyəti ən azı 96-98% olmalıdır.

Cücərtilər əmələ gəldikdən sonra şitillikdə havanın temperaturu 4-5 gün müddətində 13-16$^{0}$C, sonralar isə 20-22$^{0}$C həddində saxlanılır. Əkinə 3-5 gün qalmış şitillik daim havalandırılır.

Superelit toxumun istehsalı üçün nəsildə irsi keyfiyyətləri və əlamətləri saxlamaq şərti ilə, seçmə aparılarkən bitkinin və sortun xüsusiyyətləri nəzərə alınmalıdır. Sorttəmizləmə toxumluq meyvələr dərilənədək davam etdirilir. Sortqarışığı və xəstə bitkilər çıxdaş edilir. Yaxşı inkişaf etməmiş, çox xırda olan və az məhsul verən bitkilərdən yığılan meyvələr toxum üçün istifadə olunmur. Toxum kolda tamamilə qızarmış meyvələrdən götürülməlidir.

İlyas sortunun 1 ton meyvəsindən 3,0 – 3,5 kq toxum istehsal olunur. Meyvədə toxum ortadır, 1000 toxumun çəkisi 2,9-3,0 q-dır. Sortun toxumları adi şəraitdə cücərmə qabiliyyətini 3-5 il saxlaya bilir.


*Azərbaycan Respublikası*
*Kənd Təsərrüfatı Nazirliyi*
*Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu*




# Pomidor İLYAS sortu